# Braziliyanın Azərbaycandakı səfiri ADAU-da olub






Braziliya Federativ Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Manuel Adalberto Karlos Montenegro Lopes da Kruz Azərbaycan Dövlət Aqrar Universitetində (ADAU) olub.



Universitetin rektoru, AMEA-nın müxbir üzvü, professor İbrahim Cəfərov braziliyalı diplomata Gəncənin tarixi və şəhərin Nizami Gəncəvi kimi dünya şöhrətli mütəfəkkirin vətəni olması haqqında ətraflı məlumat verib. Ali təhsil müəssisəsi haqqında danışan rektor ikili diplom proqramları, biotexnologiyalar mərkəzi, tədris-təcrübə təsərrüfatı, yeni tədris korpusu və müasir laboratoriyaları haqqında söhbət açarkən diqqətə çatdırıb ki, hazırda universitetdə tələbələr 15 ixtisas üzrə dövlət sifarişi hesabına təhsil alırlar.

Səfir ADAU barədə təəssüratlarının müsbət olduğunu, burada işlərin müasir standartlara uyğun aparıldığını, keyfiyyətli təhsil almaq və elmi-tədqiqat işlərini yerinə yetirmək üçün universitetdə böyük imkanların olduğunu qeyd edib.

Sonra gələcəkdə qarşılıqlı tələbə-müəllim mübadiləsinin aparılması və birgə elmi-tədqiqat işlərinin həyata keçirilməsi barədə fikir mübadiləsi aparılıb.

Görüş çərçivəsində səfir universitetin müasir tədris korpusu, baytarlıq fakültəsi, tələbə parkı, tədris-təcrübə təsərrüfatı, laboratoriyaları ilə yaxından tanış olub.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

Azərbaycan.- 2021.- 7 oktyabr.- S.7.